# Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 14 oktyabr tarixli 305 nömrəli Qərarı ilə təsdiq edilmiş "Fiziki şəxslər tərəfindən istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan malların gömrük sərhədindən keçirilməsinin güzəştli və sadələşdirilmiş Qaydaları"nda dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 29** **Bakı şəhəri, 30 yanvar 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 19-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 14 oktyabr tarixli 305 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 10, maddə 1223 (Cild I); 2024, № 2, maddə 217, № 3, maddə 314, № 4, maddə 468, № 9, maddə 1106; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 10 dekabr tarixli 385 nömrəli və 25 dekabr tarixli 412 nömrəli qərarları) ilə təsdiq edilmiş "Fiziki şəxslər tərəfindən istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan malların gömrük sərhədindən keçirilməsinin güzəştli və sadələşdirilmiş Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

2.1.10-cu yarımbəndə "nəzərə alınmaqla," sözlərindən sonra "hər təqvim ili ərzində bir dəfə 1 ədəd mobil cihaz," sözləri əlavə edilsin.

1. Aşağıdakı məzmunda 2.2-1-ci bənd əlavə edilsin:

"2.2-1. Fiziki şəxslər tərəfindən gömrük ərazisinə gətirilən mobil cihazların gömrük dəyəri bu Qaydaların 2.1.2-ci və 2.1.4-cü yarımbəndləri ilə müəyyən edilmiş bir aylıq həddən artıq olduğu halda ümumi gömrük dəyərindən müvafiq yarımbəndlərdə göstərilən məbləğlər çıxılmaqla, bu malların gömrük rəsmiləşdirilməsi xarici-iqtisadi fəaliyyətin tarif və qeyri-tarif tənzimlənməsinə uyğun gömrük ödənişləri alınmaqla sadələşdirilmiş qaydada həyata keçirilir.".

3. Qaydalara 1 nömrəli əlavə - "Fiziki şəxslər tərəfindən Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilərkən yazılı formada bəyan edilməli olan malların Siyahısı"nın 9-cu hissəsində "telefon" sözü "cihaz" sözü ilə əvəz edilsin və "və digər simsiz rabitə avadanlıqları" sözləri çıxarılsın.

4. Bu Qərar 2026-cı il yanvarın 1-dən tətbiq edilir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

---

Azərbaycan.- 2026.- 3 fevral (№20).- S.3.